# Qarabağın bərpası tarixi ədalətin əbədi təsdiqidir

**44** gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu şanlı Qələbə qazanaraq 30 illik işğala son qoyub ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Son 200 ildə ilk dəfə olaraq, Azərbaycanın işğal altında qalan əraziləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə geri qaytarıldı. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması bu əzəli torpaqların Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi. İşğaldan azad olunan ilk inzibati ərazimiz isə Suqovuşan olmuşdur. Ona görə də cənab Prezident Madagizə öz tarixi adını qaytararaq Suqovuşan adlandırdı.

## *Ölkə başçısının işğaldan azad olunmuş torpaqlarımıza səfərləri bu ərazilərə yenilik, dirçəliş gətirir*

2020-ci il 3 oktyabr tarixində müzəffər ordumuz tərəfindən Suqovuşanın işğaldan azad olunması çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin coğrafi yeri müharibənin gedişatında önəmli rol oynayır və ordumuza gələcək əməliyyatlarda üstünlük qazandırırdı. Burada düşmənin çox böyük canlı qüvvəsinin olmasına baxmayaraq, ərazinin azad olunması bölgədəki strateji yollara da nəzarətimizi təmin etdi. Kənd ərazisində Suqovuşan Su Anbarı və "Suqovuşan-1", "Suqovuşan-2" kiçik Su Elektrik stansiyaları yerləşirdi. Ermənilər tərəfindən kənddə 2014-cü ildə balıqartırma zavodu da tikilmişdi.

İşğaldan azad olunandan sonra 2021-ci ilin oktyabrında Suqovuşana ilk səfəri zamanı Tərtər rayonunun Talış kəndində və Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldan Prezident İlham Əliyev Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi və pravoslav kilsələrində olmuşdur. Ölkə başçısı "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışında da iştirak etmişdir.

Bu il martın 20-də Azərbaycan Prezidenti İlham Əliyev Suqovuşandan Azərbaycan xalqına müraciətində demişdir: "Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır". Bu gün Prezident İlham Əliyevin rəhbərliyi sayəsində qüdrətli, qalib və məğrur Azərbaycan düşmənin hər bir təxribatına cavab vermək və onu məhv etmək iqtidarındadır. Ölkəmiz heç kimin köməyi olmadan ermənilərin 30 ildə viran qoyduğu əraziləri yenidən dirçəltmək və keçmiş qaçqınları öz doğma yurdlarına qaytarmaq gücündədir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş torpaqlarımıza, o cümlədən Suqovuşana etdiyi səfərləri bu ərazilərə yenilik, dirçəliş gətirir.

**(davamı 7-ci səhifədə)**

# Qarabağın bərpası tarixi ədalətin əbədi təsdiqidir

(əvvəli 1-ci səhifədə)

Suqovuşanda öz yurdlarına qayıdacaq vətəndaşlarımız üçün ən müasir evlər tikilir. Rəsmi məlumata görə, 44 günlük Vətən müharibəsi zamanı, hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində 16 fərdi ev qismən yararsız vəziyyətə düşmüşdür. Bu evlərdən biri əsaslı təmir olunub. Təmir olunan evin ümumi yaşayış sahəsi 92 kvadratmetrdir. Layihəyə əsasən ev 3 otaq, mətbəx və 2 sanitar qovşağından ibarətdir. Tikintisi aparılan sahə isə 148 kvadratmetr təşkil edir. Həyətyanı sahə abadlaşdırılıb, ərazidə ağaclar əkilib. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilib, yola asfalt örtüyü döşənib. Yeni tikilən yaşayış məhəlləsindəki bu ilk ev onu deməyə əsas verir ki, bu ərazilərdə yaradılacaq şərait və infrastruktur doğma yerlərinə qayıdacaq insanların yaşayışını ən yüksək səviyyədə təmin edəcək. İşğal olunmuş ərazilərimizdən qaçqın düşərək 30 il əziyyət çəkmiş vətəndaşlarımız ən müasir yerlərdə yaşamaq imkanını əldə edəcəklər.

Suqovuşan qəsəbəsinin və Talış kəndinin içməli su təchizatı qısa müddətdə bərpa olunub. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə su təchizatı sisteminin bərpası və yenidən qurulması çərçivəsində yaşayış məntəqələrinə müxtəlif diametrli polietilen borularla 3 km uzunluğunda magistral su xətti çəkilir. Artıq Talış kəndinə su xəttinin çəkilişi yekunlaşıb, Suqovuşan qəsəbəsində isə işlər başa çatmaq üzrədir. Ümumilikdə, magistral su kəmərlərinin 90%-i inşa edilib. Hadrut qəsəbəsi, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında içməli su təchizatının bərpası məqsədilə təxirəsalınmaz işlər görülür.

Səfər çərçivəsində 35 kilovoltluq yüksəkgərginlikli, müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimatı olub. Ümumiyyətlə, hazırda işğaldan azad olunmuş ərazilərimizdə qurulan elektrik şəbəkəsi ən müasir texnologiyalar əsasında tikilir. Bu da həmin ərazilərdə şəbəkəni iqlimin təsirlərindən qoruyaraq fasiləsiz elektriklə təmin olunmasına imkan verəcəkdir. Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq kompleksin təməlqoyma mərasimində bildirildi ki, ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcək. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan Su Anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaq. Həmçinin, burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaq. Təməlqoymadan sonra dövlətimizin başçısı və birinci xanım kompleksin ərazisində ağac əkiblər. Onu da qeyd edək ki, Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq, növbəti mövsümdə turistlərə xidmət göstərəcək. Görülən işlər sübut edir ki, füsunkar, təkrarolunmaz təbiətə malik və tarixi abidələrlə zəngin Qarabağ bölgəsi tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoyublar. Qeyd edək ki, ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə digər sahələrlə yanaşı, idmanın inkişafı da diqqət mərkəzindədir. Prezident İlham Əliyev Qarabağda idmanın inkişaf etdirilməsi ilə bağlı deyib: "Azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin Baş planlarında da öz əksini tapır". Yaxın gələcəkdə avarçəkmənin "Kayak", "Akademik avarçəkmə" və "Kanoe" növləri üzrə beynəlxalq yarışlar Tərtər rayonunun Suqovuşan qəsəbəsində keçiriləcək. Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Əsas məqsəd ölkəmizdə avarçəkmə idman növünün coğrafiyasını genişləndirmək və gəncləri bu idman növünə cəlb etməkdir. Belə bir tədbirin Qarabağda keçirilməsi xüsusi əhəmiyyəti kəsb edir. Eyni zamanda, idmançılar üçün böyük bir stimuldur. Burada yarışların baş tutması həm də xaricdən gələn qonaqlara, idmançılara Azərbaycan təbiətini, gözəl mənzərələri seyr etmək imkanı qazandıracaq. Suqovuşanda avarçəkmə üzrə təlim-məşqlərin keçirilməsi bölgədə idmanın dirçəldilməsi istiqamətində atılan ilk addımlardandır. Gələcəkdə Suqovuşanda avarçəkmə bazasının yaradılması nəzərdə tutulur ki, bu da yerli gənclərin bu idman növünə marağını artıracaq, eyni zamanda bölgədə turizmin inkişafına öz töhfəsini verəcək.

Bütün bunlar onu göstərir ki, azad olunmuş ərazilərimizdə bərpa işləri sürətlə aparılır və bu işlər ölkə rəhbərliyinin xüsusi diqqətindədir. Dövlət başçısı dəfələrlə bəyan edib ki, Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Baxmayaraq ki, erməni vandalları 30 il ərzində həmin əraziləri tamamilə dağıdıb, amma dövlətimiz bu torpaqlara yenidən həyatı qaytarmaq üçün əzm və qətiyyət nümayiş etdirir. Bütövlükdə regionda yeni reallıqlar yaradan dövlətimizin bölgənin gələcəyi ilə bağlı hədəfləri böyükdür. Bu hədəflərə çatmaq üçün Azərbaycan bütün imkanlarını səfərbər edir.

**_Ölkə başçısının işğaldan azad olunmuş torpaqlarımıza səfərləri bu ərazilərə yenilik, dirçəliş gətirir_**



**Mustafa KAMAL,**
**"Respublika".**